# AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## Tibbi biologiya və genetika kafedrasının

## İnkişaf strategiyası

# KAFEDRANIN İŞİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

**Tədris edilən fənlərin tədris-metodiki işinin müasir proqramlar əsasında yüksək elmi səviyyədə təşkili və həyata keçirilməsi.**

**Kafedranın profilinə uyğun elmi istiqamətlər və proqramlar üzrə fundamental və tətbiqi tədqiqatların aparılması və əldə olunan nəticələrin beynəlxalq səviyyədə təqdim edilməsi.**

**Tədris prosesinin keyfiyyətinin artırılması məqsədilə tədris metodiki işləri təşkili proqramların, dərsliklərin, dərs və metodiki vəsaitlərin müasir elmi nəaliyyətlər əsasında yenilənməsi və standartlara uyğunlaşdırılması.**

**Profilinə uyğun elmi-tədqıqat işlərinin aparılması və elmi kadrların hazırlanmasının təşkili, doktorant və gənc tədqiqatçıların elmi fəaliyyətə cəlb olunması və onların peşəkar inkişafının təmin edilməsi. Müxtəlif ali təhsil müəsisələri və elmi qurum və elmi qurumlarda əməkdaşlığın aparılması.**

**Professor-müəllim heyətinin müasir təlim metodları və innovativ pedaqoji yanaşmalar üzrə bilik və bacarıqlarının inkişaf etdirilməsi**

# TƏDRİS-METODİKİ İŞLƏR ÜZRƏ ƏSAS İSTİQAMƏTLƏR

**Müasir bilik, bacarıq və səriştələrə malik məzunların hazırlanması məqsədilə tədrisin beynəlxalq standartlara uyğun təşkil edilməsi və tələbələrin nəzəri bilikləri ilə praktik vərdişlərinin inkişaf etdirilməsi təmin etmək.**

**Dünyanın qabaqcıl ali təhsil müəssisələrinin təcrübəsinə əsaslanaraq standartlara uyğun təhsil proqramlarının və səriştələrə nəzarət mexanizmlərinin hazırlanmasını fənn proqramlarının (silabusların) standartllara uyğun tərtibi və mütəmadi yenilənməsini həyata keçirmək.**

**Yeni elektron tədris materiallarının hazırlanması və mövcud resursların müasir elmi nailiyyətlərə uyğun şəkildə mütəmadi yenilənməsi təmin etmək.**

**Tədris olunan fənlər üzrə Azərbaycan, İngilis və Rus dillərində dərslik, dərs vəsaiti və metodiki vəsaitlərin hazırlanması və nəşrinin təşkil edilməsi.**

**Digər universitetlərin və elmi-tədqiqat institutlarının müvafiq kafedraları ilə tədris-metodiki istiqamətdə əməkdaşlıq əlaqələrini inkişaf etdirmək ,qarşılıqlı seminarların təşkilini həyata keçirtmək.**

**Müasir təlim texnologiyalarına uyğun olaraq professor-müəllim heyətinin pedaqoji və metodiki bacarıqlarının təkmilləşdirilməsi məqsədilə innovativ və interaktiv təlim üsullarının tətbiqi, rəqəmsal üsullardan istifadəyə yiyələnmək.**

**Tədris prosesində problem əsaslı öyrənmə və tələbəyönümlü metodların geniş tətbiqini həyata keçirtmək.**

**Professor-müəllim heyətinin, xarici dildə, xüsusilə ingilis dili üzrə, akademik kommunikasiya bacarıqlarının artırılması istiqamətində işlərin həyata keçirilməsi.**

**Professor-müəllim heyətinin müasir təlim metodları üzrə ixtisasartırma proqramlarında iştirakının təşkili və onların pedaqoji bacarıqlarının davamlı inkişafının təmin edilməsi.**

**Tələbələrin elmi-tədqiqat fəaliyyətinə cəlb olunmasının təşviqi və onların elmi layihə və araşdırmalarda iştirakına metodiki dəstəyin göstərilməsi.**

**Tələbələrin milli-mənəvi dəyərlərə bağlı, vətənpərvər və sosial məsuliyyətli mütəxəssis kimi yetişdirilməsi istiqamətində əməli işlərin həyata keçirilməsi.**

**Kafedrada tədris prosesinə nəzarət və təhlil məqsədilə tədris keyfiyyətinin monitorinqi, nəticələrin təhlili və təkliflərinin hazırlanmasını həyata keçirmək.**

**Tədris prosesində rəqəmsal və kompüter texnologiyalarından istifadənin genişləndirilməsi və təkmilləşdirilməsini təmin etmək.**

**Kafedrada müasir tədris ədəbiyyatı və elektron resurslarla zənginləşdirilmiş ixtisaslaşmış kitabxana fondunun yaradılmasını həyata keçirmək.**

**Tələbələrin bilik və bacarıqlarının obyektiv qiymətləndirilməsi üçün qiymətləndirmə mexanizmlərin – imtahan suallarının , test banklarının və qiymətləndirmə meyarlarının hazırlanması istifadə olunan test və sorğu materiallarının müasir standartlara uyğun yenilənməsini təmin etmək..**

**Doktorant və dissertantların elmi araşdırma mövzularının ixtisas profili və müasir elmi tələblərə uyğun seçilməsi və dissertasiya işlərinin keyfiyyətinin yüksəldilməsinin təmin edilməsi.**

# KAFEDRANIN ELMİ-TƏDQİQAT İŞİ SAHƏSİNDƏ ƏSAS İSTİQAMƏTLƏR

**Prioritet kafedranın profili üzrə aktual və perspektivli elmi problemlərin seçilməsi və araşdırılması, tədqiqat istiqamətlərinin müəyyən edilməsi, elmi tədqiqatların planlaşdırılması, koordinasiyası və mərhələli şəkildə həyata keçirilməsinin təmin edilməsi.**

**Xarici ali təhsil və elmi-tədqiqat müəssisələri ilə birgə beynəlxalq qrant və əməkdaşlıq fəaliyyətinin genişləndirilməsi, qabaqcıl elmi mərkəzlər ilə davamlı tərəfdaşlıqların qurulması və beynəlxalq proqramlara qoşulmanın həyata keçirilməsi.**

**Kafedra əməkdaşlarının elmi nəticələrinin beynəlxalq indeksləşdirilmiş jurnallarda nəşri, beynəlxalq və yerli konfranslarda sözlü və poster təqdimatlarının artırılması və ixtisasartırma proqramlarında iştirakının təmin edilməsi.**

**Doktorant və gənc tədqiqatçıların elmi fəaliyyətə cəlb olunması və onların tədqiqat bacarıqlarının inkişafı istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirilməsi.**

**Universitet daxilində və beynəlxalq səviyyədə elmi seminarlar, konfransların keçirilməsinin təşkil olunması.**

# MADDİ-TEXNİKİ BAZANIN YAXŞILAŞDIRILMASI

**Tədris və elmi-tədqiqat fəaliyyətinin səmərəliliyinin artırılması məqsədilə müasir texniki avadanlıqların, proqram təminatının və rəqəmsal platformaların tətbiqinin genişləndirilməsi**

**Auditoriyaların interaktiv lövhələr,proyektor sistemləri və multimedia vasitələri ilə təchiz olunmasının həyata keçirilməsi.**

**Tədris prosesində və elmi tədqiqatlarda istifadə olunan mənəvi və fiziki cəhətdən köhnəlmiş cihaz və qurğuların mərhələli şəkildə yenilənməsi məqsədilə yeni avadanlıqların alınması.**

**Kafedrada kompüter texnologiyalarının maddi-texniki bazasının gücləndirilməsi, müasir kompüter və rəqəmsal avadanlıqların sayının artırılması.**

**Elmi və tədris fəaliyyətini dəstəkləyən elektron kitabxana fondunun və ixtisaslaşmış məlumat bazalarının formalaşdırılmasının təmin edilməsi.**

# TƏLƏBƏLƏRLƏ İŞ

**Tələbələrdə elmə marağın artırılması məqsədilə elmi cəmiyyətlərin təşkili və onların elmi fəaliyyətə fəal cəlb olunmasının təmin edilməsi;**

**Tələbələrin, müəllim–tələbə əməkdaşlığı mühitində, akademik inkişafına şərait yaradan qarşılıqlı elmi fəaliyyət mexanizmlərinin tətbiq olunması;**

**Milli-mənəvi dəyərlərə sadiq, yüksək etik prinsiplərə malik və məsuliyyətli tibb mütəxəssislərinin formalaşdırılmasına yönəlmiş maarifləndirici və tərbiyəvi tədbirlərin həyata keçirilməsi;**

**Tələbələrin tədris prosesində iştirakının və daxili qaydalara əməl olunmanın daim izlənməsinin həyata keçirilməsi.**